*Bağırzadə Əli Güloğlan oğlu, doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti*
*Email: bagirzade_ali@mail.ru*

# EMAL SƏNAYESİNƏ İNVESTİSİYA QOYULUŞLARININ İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Respublikamızda iqtisadi artım üçün yeni ehtiyat mənbələrindən faydalanmaq, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektoruna daha çox investisiyaların cəlb edilməsi məqsədilə iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artırılması istiqamətində mühüm islahat proqramları həyata keçirilməkdədir. Həmçinin yerli şirkətlərin dünya bazarlarında daha uğurlu rəqabət aparmasına şərait yaratmaq üçün onların idarəetmə təcrübələrinin və səmərəliliyinin artırılması istiqamətində proqramlar işləyib hazırlamaq lazımdır. Hazırda da ölkədə iqtisadi fəallığı gücləndirmək, özəl təşəbbüslərə dəstək vermək, iqtisadiyyatda bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq zəruri struktur dəyişiklikləri aparmaq, sağlam rəqabət mühiti formalaşdırmaq və milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək məqsədilə dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir.

Respublikamızda 2010-2020-ci illər ərzində yüksək investisiya aktivliyi müşahidə edilmişdir. Dövr ərzində ölkə iqtisadiyyatına 235,3 milyard manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 49,7 faizi və ya 116,9 milyard manatı daxili, 50,3 faizi və ya 118,4 milyon manat isə xarici mənbələr hesabına maliyyələşmişdir. [6]

İnvestisiya aktivliyi ilə bağlı digər mühüm çağırış daxili investisiyaların əsas mənbəyinin dövlət maliyyəsindən özəl sektorun üzərinə ötürülməsinə nail olmaqdır. Bu prosesin baş verməsində ləngimələr dövlət maliyyəsinin, xüsusilə də dövlət büdcə-

sinin dayanıqlı və səmərəli idarə edilməsi üzərində risklər formalaşdırır və özəl təşəbbüskarlıq fəaliyyətinin zəifləməsinə səbəb olur. Məhz bu səbəbdən özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühiti daha da təkmilləşdirilməli, birbaşa xarici investisiyaların qeyri-neft sektoruna cəlb edilməsi istiqamətində işlər sürətləndirilməlidir. Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2017-ci il Sərəncamına əsasən ənənəvi sahələrindən olan pambıqçılığın, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilmişdir. Eləcə də ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm investisiya tədbirləri həyata keçrilməkdədir.

Lakin yuxarıda qeyd edilənlərlə yanaşı, dayanıqlı inkişafın təmin edilməsi, gələcəkdə maliyyə resurslarının diversifikasiyasının təmin edilməsi, rəqabət qabiliyyətinin artırılması məqsədilə istehsalçıların maliyyə resursları ilə təminat səviyyəsinin yüksəldilməsi və bu sahədə qarşıya çıxacaq risklərin düzgün qiymətləndirilməsi üzrə mexanizmlərin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Buna görə də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin "Maliyyəyə çıxışın asanlaşdırılması" sərlövhəli 3-cü strateji hədəfində nəzərdə tutulmuş prioritetlərdə əhatə edilmiş tədbirlərin həyata keçirilməsini sürətləndirmək zərurəti yaranmışdır.

Qeyd edək ki, respublikamızda dayanıqlı və davamlı inkişafının təmin olunmasında iqtisadiyyata, xüsusən də kənd təsərrüfatına investisiyaların cəlb edilməsi xüsusi rol oynayır. Hazırda investisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə əlverişli investisiya mühitinin yaxşılaşdırılması respublikamızın qarşısında duran əsas vəzifələrdəndir. Sözü gedən investisiya mühiti xarici investisiyaların cəlb olunmasını müəyyənləşdirən hökumətin yaratdığı iqtisadi, hüquqi və sosial amillərin məcmusudur. Bu amillərin hər biri ölkənin investisiya mühitinin xarakteri üçün əhəmiyyətlidir.

Son illərin tendensiyasına əsasən, qeyri-neft sektoru üzrə yönəldilmiş investisiyaların həcmi neft sektoru üzrə yönəldilmiş investisiyaların həcmini üstələyir. Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye (xüsusilə də emal), tikinti, nəqliyyat və ticarətdir. Qarşıdakı illərdə bu investisiyaların aqrar sahəyə də daha çox cəlb edilməsi nəzərdə tutulur. Qəbul olunmuş bir çox dövlət proqramında da göstərilir ki, qarşıdakı illərdə dövlət investisiyaların aqrar bölmənin infrastruktur təminatının yaxşılaşdırılmasına, kommunal xidmətlərin həcminin və keyfiyyətinin yüksəldilməsinə yönəldilən investisiya siyasətini davam etdirəcəkdir.

Apardığımız tədqiqat zamanı bu nəticəyə gəlmək olar ki, aqrar sahəyə xarici

investisiya cəlb olunması üçün qarşıdakı illərdə aşağıdakı işlər görülməlidir:

- xarici investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında yeni sazişlərin imzalanması;
- investisiyaların təşviqi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və investorlar üçün hüquqi təminatın daha da genişləndirilməsi;
- xarici investisiyaların cəlb edilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin sürətləndirilməsi (vergi sistemində və gömrük tariflərində güzəştlərin tətbiqi və s.);
- investisiyaların qeyri-neft sektoru üzrə təşviqi;
- elm tutumlu və innovativ sahələrə investisiyaların cəlb edilməsinin təşviqi;
- xarici investisiyaların ixracyönümlü sahələrə yönləndirilməsi və s.

İqtisadiyyat və Sənaye Nazirliyi investisiyaların cəlb olunması üçün aqrar sahə üzrə potensial sahələri - kənd təsərrüfatı məhsullarının uzunmüddətli saxlanılması və emalı məqsədilə ərazilərdə soyuducu kameralar, anbarlar, elevatorlar və s. ilə bağlı layihələr; kənd təsərrüfatı texnikası və ehtiyat hissələrinin, gübrələrin və bitki mühafizəsi vasitələrinin, baytarlıq preparatlarının istehsalı; heyvandarlıq və quşçuluq sənayesinin tələbatını təmin etmək məqsədilə müasir tipli yem emalı müəssisələrinin tikintisi və məhsul istehsalı; un dəyirmanlarının tikintisi; pambıqçılıq; üzümçülük, meyvəçilik; tütünçülük; şəkər çuğunduru; taxılçılıq; toxumçuluq, tingçilik təsərrüfatlarının yaradılması; tərəvəzçilik və bostançılıq; çayçılıq; yağlı bitkilər, zeytunçuluq, günəbaxan; ekoloji kənd təsərrüfatı məhsullarının istehsalı; intensiv bağçılıq təsərrüfatlarının yaradılması; cins heyvanların yetişdirilməsi üzrə təsərrüfatlar; quşçuluq, damazlıq quşçuluq; arıçılıq; balıqçılıq; damazlıq və südlük istiqamətli iribuynuzlu heyvandarlıq təsərrüfatlarının yaradılması müəyyənləşdirmişdir.

Qeyri-neft iqtisadiyyatının strateji sektoru olan kənd təsərrüfatına və eləcə də emal sənayesinə investisiyaların cəlb edilməsinin digər bir üstünlüyü ondan ibarətdir ki, ölkəmizin əksər iqtisadi rayonları kənd təsərrüfatının istehsalı üçün zəngin potensiala malikdir və əhalinin 50%-ə yaxını bu iqtisadi rayonlarda yaşayır. 2020-ci ildə kənd təsərrüfatının ÜDM-də payı yalnız 6,9% təşkil etməsinə baxmayaraq, ölkə əhalisini ən çox işlə təmin edən sektorlardan biri bu sahədir və ümumi işçi qüvvəsinin təqribən 30%-i üçün gəlir və iş yerləri rolunu oynayır. Ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən kənd təsərrüfatı və onun emalının ÜDM-də payı çox aşağıdır və bu mövcud potensialı əks etdirmir. Əgər yuxarıda qeyd etdiyimiz kimi, respublikamızda kənd təsərrüfatının emalı sahəsində investisiya tədbirlərini gücləndirsək, ölkənin ərzaq təhlükəsizliyi baxımından idxal olunan ərzaq məhsullarının xüsusi çəkisi azalmaqla yanaşı iqtisadi rayonlarda əhalinin işlə təmin olunmasına böyük imkan yaranmış olar.

Qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatında investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin artırılmasının prioritet istiqamətləri, əsas də investisiya qoyuluşlarının texnoloji strukturunun normallaşdırılması, ərazi və sahə miqyasında investisiya resurslarından səmərəli istifadə edilməsinə və geniş təkrar istehsala yönəldilməlidir.

Araşdırmalar göstərir ki, mövcud şəraitdə bütövlükdə kənd təsərrüfatı və emal müəssisələri irimiqyaslı investisiya qoyuluşlarına ehtiyaclıdır. Nəzərə almaq lazımdır ki, kəndlərdə kənd təsərrüfatına alternativ istehsal sahələri demək olar ki, yox dərəcəsindədir. Bu səbəbdən kənd təsərrüfatında alternativ fəaliyyət sahələrinin formalaşdı-

rılmasına investisiya qoyuluşlarının artırılması da əsas cəhətlərdən biridir. Fikrimizcə, ümumilikdə aqrar sahəyə investisiya qoyuluşu, əsasən emal sənayesini, kənd təsərrüfatını, sosial sferanı və eləcə də kəndlərdə alternativ fəaliyyət sahələrinin artırılmasına istiqamətlənmiş tədbirlərin reallaşdırılmasını əhatə etməlidir. Kəndlərdə alternativ fəaliyyət sahələrinin yaradılması, kənd yerlərində yaşayan əhalinin gəlir əldə etmək imkanlarını genişləndirir və bu da əhalinin gəlirlərin artmasına böyük dərəcədə təsir göstərə bilər. Ümumiyyətlə, kənd təsərrüfatında bu kimi problemlərin həlli investisiya mühitinin yaxşılaşdırılmasından, eyni zamanda aqrar sahənin davamlı inkişafının təmin olunması istiqamətində daxili və xarici investisiyaların cəlb olunmasından birbaşa asılıdır. Qeyd edilənlər, kənd təsərrüfatında davamlı inkişafı təmin etməklə yanaşı kəndlərin sosial problemlərini effektiv şəkildə həll olunmasına də imkan yarada bilər.

Müasir şəraitdə kənd təsərrüfatında məhsul istehsalı və emalının stimullaşdırılması ərzaq bazarının qiymət və əmtəə stabilliyinə eyni zamanda dövlətin aqrar sahədəki strateji maraqlarının qorunmasına xidmət edir. Təhlillərdən belə nəticəyə gəlmək olar ki, iri emal müəssislərinin formalaşdırılmasında investisiya qoyuluşları zəruri iqtisadi mexanizmlər ilə həyata keçirilməlidir. Bu baxımdan kənd təsərrüfatında emala yönəldilən investisiyalarda daxili mənbələrdən yönəldilən investisiyaların xüsusi çəkisinin artırılmasına nail olmaq, o cümlədən mənfəət və amortizasiya ayırmalarının çəkisinin artırılmasına və xarici mənbələrdən yönəldilən investisiyaların cəlb olunmasına əlverişli şərait yaradılması vacibdir. Emal müəssisələrinin sərəncamlarında olan tikililərin, torpaq sahələrinin və digər bu kimi əmlakların girov qoyulması ilə güzəştli şərtlərlə kreditləşdirmə prosesinin reallaşdırılması davamlı inkişafın təmin olunmasında başlıca maliyyə mənbəyi ola bilər. Eyni zamanda, kənd təsərrüfatının məqsədli proqramlar vasitəsilə dövlət büdcəsi hesabına maliyyələşdirilməsi sahənin inkişafında yerli əmtəə istehsalçılarının və emal müəssisələrinin iqtisadi gücü daxilində olmayan problemlərin həll olunmasında mühüm rol oynaya bilər.

Müasir şəraitdə emal müəssisələrinin formalaşdırılmasının başlıca investisiya mənbəyi kimi ipoteka kreditlərinin müxtəlif formalarından istifadə edilməsi mühüm əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsulları istehsal və ya emal edən müəssisələr ipoteka şərtləri ilə böyük həcmdə vəsait əldə etmək imkanına malikdir və bu da uzun müddətli xarakter daşıya bilir. Lizinq fəaliyyətinin genişləndirilməsi emal müəssisələrinin maliyyə ehtiyatlarının məhdud olmasını nəzərə almaqla səmərəli geniş təkrar istehsalın reallaşdırılmasına imkan verən mühüm məqamlardan biri hesab edilə bilər.

Araşdırmalar göstərir ki, mövcud şəraitdə kənd təsərrüfatında davamlı inkişafın və eləcə də ərzaq təhlükəsizliyinin təmin olunması baxımından kənd təsərrüfatında müxtəlif formalarda inteqrasiya edilmiş strukturların fəaliyyət göstərməsinə diqqət artırılmalıdır. Belə ki, kənd təsərrüfatı yönümlü maliyyə-sənaye qruplarının yaradılması, eləcə də korporativ əsaslar ilə səhm kapitalı özəl sektora və yaxud da bilavasitə dövlətə malik olan birliklərin formalaşdırılmasına xüsusi diqqət ayrılmalıdır. Bu birliklərin yaradılması hesabına kənd təsərrüfatı məhsulları istehsal və ya emal edən müəssisələrin investisiya bazarlarına daxil olma imkanları genişləndirilə bilər. Bu isə, öz növbəsində, kənd təsərrüfatının həm əlavə vəsait qoyuluşu ilə təmin olunmasına, həm də kənd təsərrüfatının mövcud bir sıra problemlərin həll edilməsinə imkan yarada bilər.

Kənd təsərrüfatı və emal sənayesini texniki və texnoloji cəhətdən zəruri avadanlıqlar, eləcə də innovasiya resursları ilə təmin olunması üçün investisiya və kreditlərin ayrılmasına xüsusi diqqət yetirilməlidir. Xarici investorların cəlb olunması mexanizminin də təkmilləşdirilməsinə ehtiyac vardır. Bu sahəyə vəsait qoyan xarici investorların stimullaşdırılması məqsədilə müəyyən müddətə vergilərdən azad olunması və eləcə də bu sahələrə giriş imkanlarının artırılmasına xüsusi diqqət yetirilməlidir. Belə şəraitdə həm kənd təsərrüfatında kapital azlığının qarşısı alına bilər və həm də kənd təsərrüfatında pul vəsaitin artırılmasına nail olmaq olar. Qeyd olunanlar isə zəruri iqtisadi və hüquqi mexanizmlərin formalaşdırılması ilə sıx bağlıdır.

Araşdırmalar göstərir ki, emal müəssisələrində məhsul istehsalının artırılmasına xarici investisiyaların cəlb olunması ilə bağlı beynəlxalq standartlara uyğun bu sahədə zəruri normativ bazanın yaradılması və onun davamlı yenilənməsi vacibdir. Eyni zamanda, istər yerli səviyyədə, istərsə də respublika səviyyəsində büdcələr arasında investisiya fəaliyyətində funksiyalar konkretləşdirilməlidir.

Qloballaşma prosesində məhsul istehsalının və emalının rəqabət qabiliyyətinin artırılmasının əsas şərtlərindən biri iqtisadiyyatın modernləşdirilməsidir. Bu səbəbdən dövlətin həyata keçirdiyi iqtisadi siyasət, birinci növbədə, modernləşdirilmə prosesinin reallaşdırılmasına yönəldilməlidir. Dövlətin iqtisadi siyasətinin vacib tərkib hissəsi olan aqrar siyasət də modern aqrar iqtisadiyyatın formalaşmasına xidmət etməli və ümumilikdə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, ərzaq kompleksinin səmərəli inkişafının təmin edilməsinə və yerli məhsulların ixrac imkanlarının artırılmasına istiqamətlənməlidir. Onu da nəzərə olmaq lazımdır ki, ölkəmizin kənd təsərrüfatının böyük ixrac potensialı vardır. Mövcud ixrac potensialından səmərəli istifadə və xarici bazara çıxış imkanlarının artırılması ilə xarici bazarlara məhsulların ixracı bu sahəyə yönəldilən investisiyaların artırılması ilə sıx bağlıdır. Bu səbəbdən əmtəəlik kənd təsərrüfatı məhsulları emal edən müəssisələrin formalaşdırılması və inkişafı həm aqrar sahədə və həm də ölkə iqtisadiyyatında çoxşaxəli, yəni diversifikasiyalı inkişafın təmin olunmasının ilkin şərtidir. Məhz iri emal müəssisələrinə investisiya qoyuluşlarının həcminin artırılması çoxşaxəli inkişafın təmin olunmasında əhəmiyyətli rol oynayır. Fikrimizcə, sahənin innovasiyalı və industrial inkişafı, əsasən, yüksək texnoloji investisiya layihələri ilə reallaşdırıla bilər. Bu isə kənd təsərrüfatının əsas vasitəsi olan sudan və torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi, münbitliyin qorunub saxlanılması istiqamətində lazımi tədbirlərin reallaşdırılmasını tələb edir.

Emal müəssisələrində məhsul istehsalının və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə aqrobiznes proqramlarının hazırlanması və reallaşdırılması da mühüm əhəmiyyətə malikdir. Belə proqramların reallaşdırılması özündə 4 istiqaməti birləşdirir: 1) maliyyə sağlamlaşdırılması; 2) emal müəssisələri üçün zəruri resurs və xidmətlərin əldə edilməsinə çıxışın genişləndirilməsi; 3) emal müəssisələrinin maddi-texniki resurslarla səmərəli təminatı; 4) dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş proqram-hədəf xarakterli "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"də iri və orta istehsal və emal təsərrüfatların yaradılmasını və eləcə də məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xüsusi diqqət yetirilmişdir. Bundan Strateji Yol Xəritəsində kənd təsərrüfatı məhsulları istehsal və emal edən təsərrüfatların güzəştli

şərtlər ilə maddi-texniki vasitələrin və digər resursların əldə edilməsinə əlverişli şərait yaratmışdır.

Emal müəssisələrinin formalaşdırılması və məhsul istehsalının artırılması diversifikasiyalı inkişafında mühüm rol oynadığını nəzərə alsaq, bu sahəyə investisiya qoyuluşlarının həcminin artırılması və xüsusi investisiya proqramlarının qəbul olunması məqsədə uyğundur. Emal müəssisələri üçün xammal istehsalı ilə yanaşı, məhsulun emalı üçün də əlverişli şərait yaratmaq mümkündür. Qeyd edilənlər isə yekunda həm istehsal olunan yerli məhsulların keyfiyyətinin artırılmasına, həm də ərzaq məhsullarə bazarında çeşidin genişləndirilməsinə şərait yaradar. Bunun üçün, birinci növbədə, istehsalın texnoloji və texniki baxımdan restrukturizasiyası və eləcə də bu məhsulların ixrac imkanlarının genişləndirilməsi ön plana çəkilməlidir. Daxili tələbatın ərzaq və kənd təsərrüfatı məhsulları ilə etibarlı şəkildə təmin olunması məqsədilə məhsulun istehlakçılara çatdırılması, saxlanması və eləcə də onun tədarükü və emalı ilə bağlı kooperasiya münasibətlərinin inkişafına xüsusi diqqət yetirilməlidir. Kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişafı əsasında həm iri emal müəssisələrinin formalaşdırılmasına nail olmaq, həm də bu yolla ərzaq təhlükəsizliyini təmin etmək və eləcə də ixrac imkanlarını genişləndirmək mümkündür.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Bakı, 2019. 184 s.
2. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Bakı. 2016. 177 s.
3. “Azərbaycanın Statistik Göstəriciləri 2021”, Statistik məcmuə. Bakı, 2021. 752 s.
4. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı. 2016, 655 s.
5. İbrahimov İ.H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. Bakı, 2022. 240 s.
6. https://www.stat.gov.az/